# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**
**____ nömrəli ____________2017-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 060312 - Dekorativ sənət (sahələr üzrə)**

**BAKI – 2017**

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060312 - Dekorativ sənət (sahələr üzrə)** ixtisası üzrə Təhsil Proqramı "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr"dərəcələrinin verilməsi Qaydaları"nın tələblərinə və "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun hazırlanmışdır.

**1.2.** İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**İTP** – ixtisas üzrə Təhsil Proqramı
**ÜK** – ümummədəni kompetensiyalar
**PK** – peşə kompetensiyaları

## 2. 060312 - Dekorativ sənət ixtisasının xarakteristikası.

**2.1. 060312 - Dekorativ sənət ixtisasının xarakteristikası.**
İTP-nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060312 - Dekorativ sənət (sahələr üzrə)** | Magistr | 1,5 il | 90 |
| **İxtisaslaşmalar:** | | | |
| - Bədii xalça | | | |
| - Bədii toxuculuq | | | |
| - Bədii keramika və şüşə | | | |
| - Bədii metal | | | |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**3.1. Magistrin ixtisas xarakteristikası.**
Magistr dərin fundamental biliyə və peşə hazırlığı tələb edən pedaqoji fəaliyyətə hazır olmalıdır.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK)** yiyələnməlidir:
- kollektivdə işləmək (**ÜK-1**);
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq (**ÜK-2**);
- beynəlxalq arenada işləmək (**ÜK-3**);
- hüquqi bilik və etik normalara malik olmaq (**ÜK-4**);
- yeni ideyalar irəli sürmək (**ÜK-5**);
- müstəqil işləmək (**ÜK-6**)
- yaradıcılıq, pedaqoji işlərin təşkilində, kollektivin idarə olunmasında bacarıq və vərdişlərə malik olmaq (**ÜK-7**);
- peşə fəaliyyəti ilə əlaqədar işi təşkil etmək və planlaşdırmaq (**ÜK-8**)

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

***Yaradıcılıq sahəsi üzrə:***
- dekorativ sənətin tədrisində və yaradıcılıq prosesində modelləşdirmə üsullarından istifadəyə (**PK-1**);
- yaradıcılıq prosesində nəzəri biliklərdən istifadəyə (**PK-2**);
- yaradıcılıq işlərinin planlaşdırılması və aparılmasına (**PK-3**);
- yaradıcılıq işlərinin təqdimatını hazırlamağa (**PK-5**);

- ixtisasın ümumi mənzərəsini təsvir etmək bacarığına (**PK-6**);

***İstehsalat-pedaqoji sahəsi üzrə:***

- tədris prosesində ixtisas üzrə yaradıcılıq bacarıqlarını aşılamağa və təhlil aparmağa (**PK-4**);
- fənnin tədrisində kompüter texnologiyasından istifadəyə (**PK-7**);
- fənlə bağlı termin və ifadələrin tətbiqi bacarığına (**PK-8**);
- müasir təlim texnologiyalarını tətbiq etmək bacarığına (**PK-9**);

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- ümumi və fərdi iş formalarını təşkil etməyə (**PK-10**);
- fənnin tədrisi ilə bağlı bilikləri təqdim etmək və onları iş şəraitinə adaptasiya etməyə (**PK-11**);
- qrupların yaradıcılıq işlərinə rəhbərlik etməyə (**PK-12**);
- ixtisas biliklərini düzgün və yığcam ifadə etməyə (**PK-13**);

***Pedaqoji sahə üzrə:***

- ümumtəhsil, texniki-peşə, orta ixtisas təhsili müəssisələrində və ali təhsilin bakalavriat səviyyəsində ixtisas fənlərinin tədrisini aparmağa (**PK-14**);
- elektron kitabxanalardan, referativ jurnallardan, internetdən məlumatlar əldə etməyə (**PK-15**)

## 4. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060312 - Dekorativ sənət** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:

- yaradıcılıq;
- pedaqoji;
- təşkilati-inzibatçılıq və s.

### 4.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər.

***Yaradıcılıq sahəsi üzrə:***

- ixtisas üzrə təşkilati və tətbiqi məsələlərin həllində modelləşdirmə üsullarından istifadə etmək;
- pedaqogikanın, xüsusi qabiliyyət tələb edən **060312 - Dekorativ sənət (sahələr üzrə)** ixtisasının əməli-təcrübi əsaslarından, incəsənət tarixi və nəzəriyyəsinin tədrisi metodikasının nailiyyətlərindən, qabaqcıl təcrübədən istifadə etməklə fənnin tədrisi metodikası sahəsində aparılan işləri təhlil etmək və nəticələri ümumiləşdirmək;
- konfranslar, seminarlar, simpoziumlar hazırlamaq və keçirmək.

***Pedaqoji sahə üzrə:***

- mühazirə oxumaq;
- seminar, məşğələ dərslərini aparmaq;
- pedaqoji təcrübəyə rəhbərlik etmək;
- müasir proqram təminatından istifadə etmək;
- ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etmək;
- ixtisasın tədrisinə dair informasiyaların toplanması və emalında İKT-dən istifadə etmək və s.

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- yaradıcılıq və tədris kollektivlərinin işini təşkil etmək;
- qəbul olunmuş qərarların nəticələrini kəmiyyət və keyfiyyətcə qiymətləndirmək və s.

**4.2.** İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| | **Təhsil hissəsi** | | | | |
| **MHF-B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr:<br>**bilməlidir:**<br>- psixologiyanın metodlarını, psixologiyanın əsas istiqamətlərini, qarşılıqlı münasibətlərin psixologiyasını, tələbə psixologiyasını;<br>- xarici dildə oxuyub başa düşməyi;<br>- ixtisas üzrə pedaqoji ədəbiyyatı öyrənməyi;<br>- Azərbaycanda ali təhsil sistemini, təlim prosesi və təhsilin məzmununu, elmi-tədqiqat (müəllim və tələbə) işinin metodikasını və s.<br>**bacarmalıdır:**<br>- hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı;<br>- ixtisasa aid xarici dildə elmi ədəbiyyatı tərcümə etməyi, annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı;<br>- ali məktəbin struktur və bölmələrinin fəaliyyətini, fənnin tədrisi metodikasını.<br>**yiyələnməlidir:**<br>- tələbələrə psixoloji yanaşma keyfiyyətlərinə;<br>- xarici dildə lüğətin köməyilə oxumaq və yazmaq vərdişlərinə;<br>- ali təhsil müəssisəsində tədris işləri aparmağa və s. | **10** | **MHF-B01**<br>*Yaradıcılıq psixologiyası*<br><br>**MHF-B02**<br>*Xarici dil*<br><br>**MHF-B03**<br>*Ali məktəb pedaqogikası*<br><br>**MHF-B04**<br>*Seçmə fənlər** | **2**<br><br><br>**4**<br><br>**2**<br><br><br>**2** | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-6**<br>**ÜK-7**<br>**ÜK-8**<br>**PK-8** |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənləri bölümü**<br>**bilməlidir:**<br>- quruluşu kağız üzərinə məharətlə yerləşdirməyi;<br>- işıq-kölgəni, tonların fərqini, onların zəif qradasiyalarını görə bilməyi;<br>- sərbəst yaradıcılıq prosesi ilə yanaşı rəsm çəkmənin bütün professional tərəflərini;<br>- təfəkkürü, quruluşun həllini öz prizmasından keçirmə qabiliyyətini;<br>- rəsmin çəkilməsində müxtəlif texnikalardan istifadə etməyi;<br>-dekorativ-tətbiqi sənətin təsviri sənət və memarlıq ilə olan əlaqəsini;<br>-ibtidai dövrdən başlamış müasir dövrə kimi xronoloji ardıcıllığı saxlamaq şərti ilə dünya dekorativ-tətbiqi sənətin bütün növlərinin təkamülü, inkişaf yollarını;<br>-XX əsr dekorativ-tətbiqi sənətlərini, onların inkişaf yollarını, müasirliyini, | **50** | **MİF-B01**<br>*Dekorativ-tətbiqi sənətin müasir inkişaf istiqamətləri*<br><br>**MİF-B02**<br>*Ali məktəb tərəfindən müəyyən edilən fənlər*<br><br>**MİF-B03**<br>*Seçmə fənlər** | **8**<br><br><br><br><br>**38**<br><br><br><br><br>**4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | fərqli cəhətlərini;<br>-ağır və yüngül sənayedə olan yenilikləri;<br>-tədris prosesində dekorativ-tətbiqi sənətdə üslub və material anlayışını, formanın materialdan asılılığını;<br>-XX əsr incəsənətində klassik ənənələrə yeni baxış, yeni incəsənət istiqamətlərinin yaranması, fərqli ifadə vasitələrinin axtarışları zəminində meydana gəlməsini;<br>-hər dövrün özünəməxsus rəssam obrazını, rəssamın predmetə, onun yeni formasına, materialına olan yeni baxışını;<br>- layihələndirmə metodikasını;<br>-işlənmiş layihənin hər tərəfli bədii təhlilini;<br>-obrazlı düşünməyi;<br>-layihələndirmə praktikasında, dekorativ-tətbiqi sənətin əsaslarını, bu sənətin memarlıqda sintezi və tətbiqini;<br>- təsviri sənətin əsas qanunlarını;<br>- müstəvidə təsvir olunan kompozisiya qanunlarının əsas quruluşunu;<br>- ton və rəngin qavrama nəzəriyyəsini;<br>- yaradıcılıq prosesində nəzəri biliyin metodikasını;<br>- kompozisiya, rəsm və rəngkarlıqda bədii materialların istifadəsini;<br>- materialların texnoloji əsaslarını;<br>- verilmiş mövzunu təhlil etməyi;<br>- məlumat qaynaqlarına söykənməyi;<br>- fikri mühitə uyğun sirayət etməyi;<br>- rəsm, rəngkarlıq formayaratma prinsiplərini;<br>- kompozisiyanın sxematik quruluşunun əsaslarını<br>**bacarmalıdır:**<br>- fiqurun kağız üzərində yerləşdirilməsini;<br>- quruluşun konstruktiv həllini;<br>- qrup halında quruluşları interyerdə, fəza dərinliyində təsvir etməyi;<br>- naturanın psixoloji durumunu əks etdirməyi;<br>- tapşırığı tam dəqiqliyi ilə başa çatdırmağı;<br>-ornamentlərin müxtəlifliyini, onların stilizə edilməsini və simmetriya üslublarını;<br>-keramika, şüşə, zərgərlik, mebel, metal, parça sənətlərinin yeni tələblərə görə dizaynını;<br>-təbii materialları əvəz edən sintetik materiallar, onların ağır və yüngül sənayedə istifadə olunma qaydalarını;<br>-layihənin materiala keçirilməsini;<br>-qarşıya qoyulmuş məqsədi kompleks şəkildə estetik, funksional və texnoloji cəhətdən düzgün yerinə yetirmək və kompozisiyanın qanunlarından bacarıqla istifadəni; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -layihədə öz fikrini, materialda isə işin plastikasını göstərə bilməyi;<br>-layihəni həyata keçirmə prossesinin təşkilini kompüterin köməyindən istifadə etməklə müasir metodlarla bağlamağı;<br>-ilkin yaradıcı ideyaların eskiz şəklində işlənməsini;<br>-işin forma və məzmununun xarakterik cəhətlərini tam dolğunluğu ilə özündə əks etdirən layihənin icrasını (eskiz halında);<br>- layihənin materialda icrasını;<br>-tapşırığın məzmunu üzrə görülmüş iş haqqında qısa analizini;<br>-kompozisiyada öz biliyini tətbiq etməyi;<br>- rəng duyumunu;<br>- müasir formayaratma prinsiplərini layihələrə tətbiq etməyi<br>**yiyələnməlidir:**<br>- magistr mərhələsində tələbələr fərdi təfəkkürünü, dəsti-xəttini qoruyub saxlayaraq professional səviyyəli bir rəssam – pedaqoq kimi yetişməyə;<br>-ixtisas üzrə dərslərin tədrisində müasir üsullardan və İKT-dən istifadə etmək vərdişlərinə;<br>- əsəri yaradan zaman müxtəlif texniki və texnoloji momentlərə;<br>- milli tarixi biliklərə;<br>- ümumdünya dekorativ-tətbiqi sənət tarixinə;<br>- rəsm və konstruktivləşdirmə elminə;<br>- kompozisiyaların ixtisaslara uyğun sxematik quruluşuna;<br>- təbiəti əhatə edən varlıqların stilizasiyaetmə qabiliyyətinə;<br>- rəng anlayışlarını əhatə edərək öyrədilən prinsiplərə | | | | |
| **MET-B00** | **Yaradıcılıq işləri**<br>Magistr yaradıcılıq işini yerinə yetirmək nəticəsində aşağıdakıları **bilməli** və **bacarmalıdır:**<br>-yaradıcılıq işini planlaşdırmağı;<br>-yaradıcılıq işinin mövzusunu seçməyi;<br>-ədəbiyyat sıyahısının tərtibini;<br>-yaradıcılıq işinin nəticələrini təhlil etmə-yi, onu digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;<br>-alınmış nəticələrin tətbiqi imkanlarını müəyyənləşdirməyi;<br>-yerinə yetirilmiş yaradıcılıq işinin müdafiəsini;<br>-diplomqabaği və pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümu-miləşdirməyi və yaradıcılıq işində is-tifadə etməyi və s. | **30** | Pedaqoji təcrübə<br><br>Diplomqabağı təcrübə<br><br>Magistryaradıcılıq işinin hazırlanması və müdafiəsi | **6**<br><br>**6**<br><br>**18** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15** |
| | **Kreditlərin ümumi cəmi** | **90** | | **90** | |

** Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir*

**4.3.** İxtisası üzrə magistr təhsil proqramının yerinə yetirilməsinin müddəti:
ümumi həftələrin sayı – 72
o cümlədən:
- nəzəri təlim – 30
- təcrübələr (pedaqoji və diplomqabağı təcrübə) – 8 həftə
- imtahan sessiyaları – 10 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 12 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060312 - Dekorativ sənət (sahələr üzrə)** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və yaradıcılıq işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsil alanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, elmi dərəcəsi və ya elmi adı olan ali təhsil müəssisələrinin professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

**5.3.** Magistr yaradıcılıq işinə rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı və ya elmi dərəcəsi olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

**6.2.** Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, laboratoriya və praktiki iş və digər metodlardan istifadə edilə bilər.

**6.3.** **060312 - Dekorativ sənət (sahələr üzrə)** ixtisası üzrə magistr hazırlığında diplomqabağı və pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında keçirilə bilər.

## 7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

**7.1.** Yekun dövlət attestasiyası magistr yaradıcılıq işinin müdafiəsindən ibarətdir. Yaradıcılıq işinin məzmununa, strukturuna qoyulan tələblər və onun müdafiəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyalarının hazlırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə” ilə müəyyənləşdirilir.

**7.2.** İxtisaslaşdırılmış Şuraların sədrləri Təhsil Nazirliyi, tərkibi ali təhsil müəssisəsi tərəfindən təsdiq olunur.

**7.3.** Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali dərəcəsi və dövlət nümunəli diplom verilir.

**7.4.** İmtahanlar və Yekun Dövlət Attestasiyası zamanı tələbələrin biliyinin qiymətləndirilməsi çoxballı sistemlə həyata keçirilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil
şöbəsinin müdiri
______________________Yaqub Piriyev

"_____" ______________ 2017-ci il

Mədəniyyət və İncəsənət ixtisasları
qrupu üzrə Dövlət Təhsil Proqramlarını
hazırlayan işçi qrupun sədri
________________Validə Məmmədova

"_____" ______________ 2017-ci il

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Elmi Metodiki-Şurasının
"İncəsənət" bölməsinin sədri

___________________ Zemfira Qafarova

"_____" ______________ 2017-ci il